# Fakt

## Mirdamət Sadıqov haqqında tənqid yazarkən...

Son iki ayda İsmayıllı rayon icra başçısı Mirdamət Sadıqov bir neçə sayt və qəzetlərdə davamlı şəkildə tənqid olunur. Davamlı şəkildə bu yazıları izləyərkən demək olur ki, icra başçısı haqqında tənqid yazılmır, ona şər, böhtan atılır.



Səh.4

22 aprel 2015-ci il № 119 İctimai-siyasi qəzet www.faktinfo.az faktqezeti@inbox.ru qiyməti 40 qəpik

## Prezidentdən yeni təyinat

Səh.2

## Dağıstanda "Qafqaz əmirliyi"nin lideri öldürülüb

Səh.7

## AŞPA ermənilərə "soyqırımı" ifadəsi işlətməyə icazə vermədi

Səh.2

## Umarovun adamı öldürüldü

Rusiya Antiterror Komitəsi Kebekovun öldürüldüyünü təsdiq edib Səh.6

## "Azneft" İB-nin direktoru Daşqın İsgəndərovun qudasına qarşı ittihamlar

Səh.3

## Məktəb direktoru haqda cinayət işi...

Səh.6

## Rayonlarda demək olar ki, təhsil yoxdur, amma bu ad altında milyonlar mənimsənilir

Səh.7

## Bank əməkdaşlarının qanunsuz əməlləri ifşa edildi

Səh.3

# Azercell tərəfindən göndərilən bezdirici SMS-lər tənzimlənə bilərmiş...



Səh.5

# Girovlarla görüş olacaq

Şahbazın bacısı: "Xahiş etmişik ki, onlara bağlama göndərək" Səh.7

# Təhsil Nazirliyində aparıcı şöbə müdirləri dəyişdiriləcək



Səh.2

## Kolleclər üçün yeni dövr başlayır...



Təhsil naziri Mikayıl Cabbarovun əmrinə əsasən ali və orta ixtisas təhsil şöbəsinə aid kolleclərdə qış və yay sessiya imtahanları ilə bağlı gözlənilən sükut pozulub.

Səh.4

## Keyfiyyətsiz yol çəkilişi arxada qalır



2014-cü ilin dekabr ayında mətbuatda yayılan məlumatlardan aydın oldu ki, Kürdəmir-Mollakənd-Carlı avtomobil yolu keyfiyyətsiz çəkilib.

Səh.3

## Nazir etimad göstərdiyi TSEK sədrlərini də işdən çıxarır?



Cəlilabad-Biləsuvar rayonlarını əhatə edən 30 saylı TSEK-in sədrinin həbsi son bir həftə ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümovun TSEK sədrlərinə qarşı nəzarət...

Səh.6

## Nazirdən büdcə açıqlaması

"Neftin qiymətinin azalması əsasən ölkənin tədiyə balansına mənfi təsir edib"

"2015-ci il dövlət büdcəsi proqnozlaşdırılarkən neftin qiyməti 90 dollardan götürülmüşdü, lakin indiki vəziyyətdə aydındır ki, bu rəqəm bir qədər yüksəkdir.



Səh.5

# Təhsil Nazirliyində aparıcı şöbə müdirləri dəyişdiriləcək



**Təhsil Nazirliyində kadr islahatlarının aparılması davam etdiriləcək. Bu fikirləri qəzetimizə söyləyən şəxs hesab edir ki, buna səbəb nazirlikdə çalışan rəhbər şəxslər haqqında Mikayıl Cabbarovda yaranan əminlikdir.**

Keçmiş təhsil naziri Misir Mərdanovun irəli çəkib himayə etmiş olduğu şöbə müdirləri DE-institutlaşma və Uşaqların Müdafiəsi Şöbəsinin müdiri Məlahət Hacıyeva, Kənd rayonları üzrə Ümumi Təhsil Şöbəsinin müdiri Aydın Əhmədov, Strateji Təhlil və Planlaşdırma Şöbəsinin müdiri Fərzəli Qədirov çox böyük ehtimal ki, tutduqları vəzifədən bu ilin sonuna qədər uzaqlaşdırılacaqlar.

Şöbə müdirlərinin işdən çıxarılması üçün Mikayıl Cabbarovun əlində əsaslı aqrumentlər, həm də şöbələri nöqsansız idarə edə biləcək kadrlar var. Onların adını məlum səbəblərdən qeyd etmirik. Digər tərəfdən, ölkə prezidenti İlham Əliyevin bir az əvvəl təhsildə inkişafla bağlı səsləndirdiyi fikirlər nazirin bu prosesi tezləşdirməsinə təkan verəcək.

Nəzərinizə onu da çatdıraq ki, 2014-cü ildə Texniki Peşə Təhsili Şöbəsinin müdiri Namiq Məmmədovun şöbə müdirliyindən uzaqlaşdırılacağına dair məlumatı ilk dəfə "Fakt qəzeti" olaraq qeyd etmişdik. Yazdıqlarımız təsdiqini tapdı, şöbələr birləşdirildi. Birləşdirilən Ali və Orta İxtisas Təhsili Şöbəsi və Texniki Peşə Təhsili Şöbələrinə Samir Vəliyev təyin edildi.

Məlumat üçün bildirək ki, Samir Vəliyev bu vəzifədən əvvəl "Odlar Yurdu" universitetinin prorektoru, təhsil nazirinin müşaviri vəzifələrində çalışıb.

**İnformasiya şöbəsi**



# Miri Qəmbərov əvəzlənir

**"Azkontrakt" Dövlət Koorperasiyasının prezidenti Miri Qəmbərov müavini Güləddin Dadaşovla əvəzlənir.**

Yaşlanması, səhhəti ilə bağlı Miri Qəmbərov artıq işə gələ bilmir, onun yaşı 80-i ötüb. Bunu da təbii qəbul etmək lazımdır, çünki hər birimiz yaşlanacağıq. Hətta, bəzən sənədlərin imzalanması ilə bağlı Miri Qəmbərovun evinə gedilir. Həftələrlə işə gələ bilməyən Miri müəllim yerinə öz müavini Güləddin Dadaşovun təyin olunmasını yuxarı dairələrdən xahiş edib. Onun bu xahişinin qəbul olunub-olunmamasını isə zaman göstərəcək. Güləddin Dadaşovun təcrübəli və savadlı bir şəxs olduğu da bildirilir.

# AŞPA ermənilərə "soyqırımı" ifadəsi işlətməyə icazə vermədi




**Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yaz sessiyası çərçivəsində Ermənistan nümayəndə heyəti AŞPA-nın iclas keçirilən zalının qarşısında qondarma "erməni soyqırımının" 100 illiyinə həsr olunmuş sərgi təşkil edib.**

APA-nın Avropa müxbiri xəbər verir ki, sərgidə 100 il əvvəl baş vermiş hadisələr zamanı xarici mətbuatda əks olunan yazı və fotolar əksini tapıb.

Lakin sərginin rəsmi stendində "soyqırımı" ifadəsi işlədilməyib, hadisələr qətliam kimi xarakterizə olunub. "Soyqırımı" ifadəsinin işlədilməsinə AŞPA rəhbərliyinin icazə vermədiyi bildirilir.

# İŞİD-i yaradan bilindi

## Keçmiş kəşfiyyat zabiti dindar yox, milliyyətçi kimi tanınıb

**Səddam Hüseyn dövründə İraq hərbi kəşfiyyatının polkovniki olmuş Samir Əbd-Muhammed əl-Xəlifə İŞİD-in yaradıcısıdır.**

ANS PRESS-in məlumatına görə, bu barədə "Der Spiegel" əl-Xəlifə tərəfindən tərtib edildiyi sənədlərə istinadən yazdığını bildirib. Nəşr iddia edir ki, əlyazma sənədində siyahılar, cədvəllər və Suriyanın şimal hissəsində xilafət yaradılması planı yer alıb.

31 səhifəli sənəddə əl-Xəlifənin ləqəbi Hacı Bəkr kimi göstərilib. Əl-Xəlifə 2014-cü ilin yanvar ayında Suriya üsyançıları ilə atışmada həlak olub. Amma buna qədər o, İŞİD-in mövqelərini yetərincə gücləndirib.

2010-cu ildə Hacı Bəkr və İraq kəşfiyyatının bir qrup zabiti Əbu-Bəkr əl-Baqdadini özlərinə lider olaraq seçiblər. Hacı Bəkr iki il qabaq şimali Suriyaya gedib və öz planının gerçəkləşdirilməsi üçün xarici döyüşçülər cəlbinə başlayıb.

İraqlı jurnalist Hişam əl-Haşimiinin əmisi oğlu Hacı Bəkrlə birlikdə döyüşüb. O, keçmiş zabiti dindar yox, milliyyətçi kimi tanınıb.

# Prezidentdən yeni təyinat

## Dövlət başçısının sərəncamı ilə Ali Məhkəmənin sədri təyin edilib

**Prezident İlham Əliyev Ali Məhkəməsinin sədrini təyin edib. ANS PRESS-in məlumatına görə, dövlət başçısı bununla bağlı sərəncam verib. Sərəncamda deyilir:**



"Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq qərara alıram: "Ramiz Yaqub oğlu Rzayev Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri təyin edilsin".

Qeyd edək ki, Ramiz Rzayev 1953-cü il fevralın 25-də Xudat şəhərində anadan olub. 1977-ci ildə Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsini bitirib. 1977-1979-cu illərdə həqiqi hərbi xidmət keçib. 1979-cu ildən Bakı şəhəri Nərimanov Rayon Prokurorluğunda müstəntiq, 1981-ci ildən Bakı şəhər Prokurorluğunun İstintaq İdarəsində baş müstəntiq, 1983-cü ildən Azərbaycan Respublikası Baş Prokurorunun yanında xüsusi mühüm işlər üzrə müstəntiq, 1991-ci ildən Azərbaycan Respublikası Baş Prokurorunun yanında Xüsusi Mühüm İşlər üzrə İstintaq Şöbəsinin böyük prokuroru, 1992-1993-cü illərdə Dəvəçi (indiki Şabran) rayon prokuroru, 1993-1995-ci illərdə Beyləqan rayon prokuroru, 1995-2000-ci illərdə Azərbaycan Respublikasının Hərbi Prokuroru vəzifələrində çalışıb.

Azərbaycan Respublikası Prezidentinin 25 may 1998-ci il tarixli fərmanı ilə general-mayor ali hərbi rütbəsi, 17 iyun 2000-ci il tarixli fərmanı ilə III dərəcəli, 17 yanvar 2002-ci il tarixli fərmanı ilə isə II dərəcəli dövlət ədliyyə müşaviri rütbəsi verilib. 2000-2005-ci illərdə Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini olub. 2005-ci ilin aprelin 19-dan Azərbaycan Respublikası Ali Məhkəməsinin sədridir. 2005-ci ildən Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının üzvüdür. Ailəlidir, 3 övladı var.

# Azərbaycan və İran müdafiə sənayesi üzrə əməkdaşlığı müzakirə edib

**Yavər Camalov İranın müdafiə və silahlı qüvvələrə dəstək nazirini qəbul edib**



Müdafiə sənayesi naziri Yavər Camalov Azərbaycanda səfərdə olan İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri general-mayor Hüseyn Dehqanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Müdafiə Sənayesi Nazirliyindən ANS PRESS-ə verilən məlumata görə, Y.Camalov Azərbaycanla İran İslam Respublikası arasında müxtəlif sahələrdə inkişaf edən ikitərəfli əməkdaşlığı yüksək qiymətləndirdiyini vurğulayıb. Nazir nümayəndə heyətinə Müdafiə Sənayesi Nazirliyinin fəaliyyəti ilə bağlı məlumat verib.Görüşdə iki ölkə arasında müdafiə sənayesi üzrə əməkdaşlığa və qarşılıqlı maraq doğuran digər məsələlərə dair müzakirələr aparılıb. İranın Azərbaycandakı səfiri Möhsün Pakayin də görüşdə iştirak edib.

# "Neft ucuzlaşacaq, dollar bahalaşacaq"

**Rusiya maliyyə naziri neftin gələcək taleyi ilə bağlı proqnoz verib**

"Dünya birjalarında neftin qiyməti bir barrelə görə 40 dollara qədər düşə bilər".

ANS PRESS-in məlumatına görə, bu barədə Rusiya maliyyə nazirinin müavini Maksim Oreşkin bildirib.

O qeyd edib ki, əgər belə olarsa dolların kursu 65 rubl səviyyəsinə çatacaq: "Neft üzrə çox böyük risklər var. Çünki biz görürük ki, mart ayında bazarda təklif artıb. Hazırda da təklif artımı davam edir. Əgər belə getsə, neftin qiymətini hazırki vəziyyətdə saxlamaq mümkün olmayacaq", -deyə nazir müavini bildirib.

# "Azneft" İB-nin direktoru Daşqın İsgəndərovun qudasına qarşı ittihamlar



**"Azneft" İB-nin direktoru Daşqın İsgəndərovun qudasına qarşı ittihamlar -"Niyə fəhlələrin yeməyindən yemir" Redaksiyanın elektron poçtuna daxil olmuş aşağıdakı məktubu kiçik ixtisarla dərc edirik:**

Hörmətli redaksiya!

Ötən həftə imzalarımızla təsdiq edilmiş müraciətlərimizi qəzetinizdə dərc etdiyinizə görə Sizə çox minnətdarıq. İmkanımız olsa, biz neftçilər o "Şöhrət" ordenini Sizə və Mirvari xanım Qəhrəmanlıya verərdik. Amma təəssüf ki, əlimizdə elə bir səlahiyyət yoxdur. Çünki neftçilərin halına yanan Sizlərsiniz.

Müraciətimizin hələki bir nəticəsi olmasa da, bizə olan təzyiqlərlər, hədəqorxular günbəgün artmaqdadır. Buz isə mübarizəmizi axıra kimi davam etdirəcəyik. Çünki məqsəd hər addımda pozulan hüquqlarımızın bərpasıdır.

Bu müraciətimizi isə xahiş edirik, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevaya, ARDNŞ-nin 1-ci vitse-prezidenti Xoşbəxt Yusifzadəyə göndərəsiniz. Çünki neftin nə zülmlə çıxardılmasını, neftçi peşəsinin nə olduğunu, onu yalnız rəhbərlərimizdən Xöşbəxt müəllim bilər, insanların sağlamlığını isə Mehriban xanım başa düşər.

Bildiririk ki, "Neft daşları"nda yaşadığımız yataqxananın otaqlarına kifdən, rütubətdən girmək olmur, divardakı "oboy"lar, "patalok"a vurulan "şpakilovka" emulsiya adamın üstünə tökülür, içdiyimiz dəniz suyu isə demək olar ki, artıq heç utilizasiya olunmur. Axrıncı dəfə nə vaxtı bizə təzə "pastel" verilib, yadımıza gəlmir. Bu kimi sosial məsələlərlə məşğul olmaq əvəzinə, işçiləri zorla aparıb Əhmədlərin, Akiflərin tapıb gətirdiyi keyfiyyətsiz ərzaqdan bişirilən yeməkləri yedizdirirlər.

**Hörmətli redaksiya!**

**Xahiş edirik, səhər saat 07-08 arası gəlin Bakı Dəniz Vağzalına. Bizi dənizə aparan gəminin (Sabit Orucov gəmisi) qarşısına çıxın, görərsiniz ki, "Azneft İB-nin baş direktorunun müavini İkram Qasımov və onun işçiləri-Əhməd Musayev və onun işçiləri nə canfəşanlıqla Təhlükəsizlik İdarəsinin işçilərinin köməyilə çantalarımızı yoxlayırlar. "Vitse-prezident Bədəl Bədəlovin tapşırığını yerinə yetiririk", deyib, "sumka"da olan ərzağımızı-kolbasa, sosiska və s. tökürlər yerə, minik başa çatdıqdan sonra həmin ərzaqları verirlər gəminin bufetinə, bufetçi işləyən və Əhmədin sağ əlinin əli ilə təkrar satdırırlar bizlərə.** Ac neftçinin başqa çarəsi yoxdur, çünki gəmidə, "Neft Daşları"nda başqa alternativ qidalanma yeri yeməkxana yoxdur. Otaqlarımızda olan şəxsi qab-qaşıqları tamamilə yığışdırıblar. Yəni nəyin bahasına olursa olsun, nə bişirilib bişirilməyib, gedib o yeməkxanaya pul verməlisən, vəssalam, heç yemə. Neçə vaxtdır ki, bu dözülməz vəziyyət davam edir.

İkram Qasımov, "Azneft" İB-nin Baş direktor müavini, əvvəllər Zığda tikinti idarələrinin birində aşağı vəzifələrdə işləyib. Elə ki, qardaşı Elsevər (idarə rəisidir) vitse-prezident Mikayıl İsmayılovun bacısı ilə evləndi, birdən-birə qoydular bu vəzifəyə. Onu tanıyanların dediyinə görə, eyşt-işrətlə məşğuldur. Dənizə tez-tez gəlib kef məclisləri düzəltməyi elə bunları təsdiq edir. Guya yoxlamaya gəlib. Məgər otaqlardan qab-qacaq axtaranda o, bərbad otaqları görmürmü? Vəzifəyə təyin olunandan, ancaq yemək davası edir. Başqa bir sosial məsələ həll etməyib.

**""Azneft" İB-nin direktoru Daşqın İsgəndərovun qudası, 4 saylı TQİ-nin rəisi Baxış Ağayev niyə bizə yedizdirilən yeməkdən yemir və özünün şəxsi aşbazı və xüsusi "xidmətçisi" var-Feyruz və Lena Lunina. Özü ilə aparır, özü ilə gətirir..."**

**Əhməd Musayev, onun haqqında çox yazılıb, şirkətə layiq insan deyil. Üzünə hər gün bu sözlər deyilir, amma onun üçün mənası yoxdur, təki havayı yemək və pul olsun və sair.**

**4 saylı Tikinti-Quraşdırma İdarəsinin rəisi, "Azneft" İB-nin direktoru Daşqın İsgəndərovun qudası Baxış Ağayev niyə bizə yedizdirilən yeməkdən yemir və özünün şəxsi aşbazı və xüsusi "xidmətçisi" var-Feyruz və Lena Lunina. Özü ilə aparır, özü ilə gətirir... Umumiyyətlə, digər idarə rəisləri və müavinləri də xüsusi ayrılmış yerdə və xüsusi yeməklər yeyirlər. Həmkarlar Təşkilatının bivec sədri isə bizimlə deyil, bu harınlarla həmrəydir!**

Təzadlar qəzeti



## Bank əməkdaşlarının qanunsuz əməlləri ifşa edildi

### Faktla bağlı cinayət işi açılıb

**"Parabank" ASC-nin "Masallı" şöbəsinin sabiq əməkdaşlarının qanunsuz hərəkətləri barədə həmin cəmiyyətdən daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən Lent.az-a verilən məlumata görə, araşdırmalar zamanı cəmiyyətin "Masallı" şöbəsinin sabiq müdiri Ramiz Rəhimovun, sabiq satış mütəxəssisi Coşqun Həsənovun, sabiq xəzinədar Əmrağa Həsənovun, qiymətləndirici zərgər Rəhman Ağayevin və digərlərinin qabaqcadan əlbir olub xidməti vəzifələrinin icrası ilə əlaqədar özləri üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq kredit müqavilələri üzrə girovun təminatı qismində qiymətli metal adı ilə saxta əşyaların qablaşdırılması və girov qismində qəbul edilən qiymətli metalların qiymətinin süni surətdə şişirdilməsi yolu ilə rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etmələri müəyyən olunub. Bu yolla onlar cəmiyyətə 127 min manat məbləğində ziyan vurublar. Habelə C.Həsənovun 13 müştəri üzrə banka ödənilməli olan 15 min 500 manat məbləğində pul vəsaitini mənimsəməsində şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə və ya israf etmə), 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.

# Keyfiyyətsiz yol çəkilişi arxada qalır

## Yollara baxış keçirilir

**2014-cü ilin dekabr ayında mətbuatda yayılan məlumatlardan aydın oldu ki, Kürdəmir-Mollakənd-Carlı avtomobil yolu keyfiyyətsiz çəkilib. Yol çəkilişinə ayrılan dövlət vəsaitinin mütləq faizi mənimsənilib, keyfiyyətsiz çəkilən yol dağılmaq üzrədir.**

Bu səbəblə Kürdəmir rayon İcra Hakimiyyəti Memarlıq və Tikinti şöbəsinin baş memarı Arif Əsgərov saxlanılaraq istintaqa cəlb olunub. Kürdəmir rayonunun keçmiş icra başçısı İrşad Əliyev də məsuliyyətə cəlb olunmaq üzrədir. Yayılan informasiyaları təhlil edib nəticə çıxardıqda hardasa məlum olur ki, daha hökumət yol tikintisində vəsait israfçılığı, mənimsəmə, sui-istifadə hallarını həzm etmək istəmir və bu digər yol tikintisi ilə məşğul olan şəxslərə də bir mesajdır.

Bu günlərdə əldə etdiyimiz məlumatlardan aydın olur ki, bu da son deyil, bir neçə həftədən sonra yeni çəkilmiş bütün yollara dair yoxlamalar başlaya bilər. Belə ki, hansı yollarda çökmə, sürüşmə, çat və dağılma varsa, bu şübhə doğurur, mütəxəssis rəylərindən sonra görülmüş işlərin hüquqi qiymətləndirilməsinə ehtiyac duyulacaqsa, hüquq mühafizə orqanlarına müraciət olunacaq.

AZƏRYOLSERVİS
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Bununla "Azəryolservis" ASC ictimaiyyətə tikinti quruluşlarına yol tikintisində, təmir və istismarında yeni bir mərhələnin başlanğıcına işarə vermiş olur. Bütün bunlardan bir daha aydın olur ki, yol tikintisində istənilən şirkətə fiziki və hüquqi şəxslərə çəkdikləri keyfiyyətsiz yol işlərinə görə güzəşt limiti artıq bitib.



**Daxil olan məlumatlarda o da bildirilir ki, ola bilsin ölkənin qərb rayonlarında iki il bundan qabaq çəkilmiş yollara da nəzər yetirilsin. Çəkilmiş yolun keyfiyyətli olub-olmamasına dair məlumatları öyrənmək üçün işçi qrupu bölgələrə ezam olunsun. Hətta, Qobustan 2 saylı Yol İstismar İdarəsinin Qazax və Ağstafa rayonlarında çəkmiş olduğu yollara baxış keçirilsin. İki il bundan əvvəl istifadəyə verilmiş 76 km yolun keyfiyyətli olub-olmamasına dair rəy verilsin. Görünən odur ki, "Azəryolservis" ASC-nin yeni sədri Saleh Məmmədov da bir neçə il bundan qabaq yol çəkilişlərinə dair kifayət qədər şübhələr var.**

Nəzərinizə onu da çatdıraq ki, Ağstafa-Sadıqlı istiqamətində 49 km, Qazax-Quşçu Ayrım istiqamətində 27 km yolun tikintisini iki il bundan qabaq Qobustan 2 saylı Yİİ aparıb. Ağstafa-Sadıqlı istiqamətində çəkilmiş yolu 26 saylı Yİİ təhvil götürüb. Qazax-Quşçu Ayrım istiqamətində 26 km yolu isə Qazax Yol İstismar İdarəsi hələ ki təhvil götürmədiyinə dair məlumatlar var və Qazax-Quşçu Ayrım-Alpout istiqamətində çəkilən yola ölkə prezidenti tərəfindən əlavə vəsait ötən ilin sonunda ayrılıb.

**Fakt**

# Mirdamət Sadıqov haqqında tənqid yazarkən...

## Elçin İsmayıllı və Rauf Həsənova cavab...

**Son iki ayda İsmayıllı rayon icra başçısı Mirdamət Sadıqov bir neçə sayt və qəzetlərdə davamlı şəkildə tənqid olunur. Davamlı şəkildə bu yazıları izləyərkən demək olur ki, icra başçısı haqqında tənqid yazılmır, ona şər, böhtan atılır.**

Bəzi media orqanları İsmayıllı rayon İcra Hakimiyyətinin başçısını tənqid edərkən hissə qapılırlar. Ən azı Mirdamət Sadıqov barəsində tənqid yazarkən sıradan biri haqqında deyil, professorun hədəf seçilməsi götür-qoylarla nəzərə alınmır. Mirdamət Sadıqov kimdir, hansı suallara cavab verir, o nədən təhsil sistemindən uzaqlaşdırılaraq İsmayıllı rayonuna icra başçısı göndərildi, kimi əmsallar peşəkarcasına aparılan paralellərdən sonra qeyd olunmur. Bu suallara jurnalistlərin yerinə cavab verib, pərdəni və həmkarlarımızla aramızda olan məsafəni aradan götürmək, onları pis vəziyyətdə qoymaq istəmirik. Amma... Amma sözünü boşuna işlətmirik. Çünki, bəzi sayt və qəzetlər də nəzərə almalıdır ki, İsmayıllı rayonu İcra Hakimiyyətinin başçısı Mirdamət Sadıqov barəsində tənqid yazarkən şayələri xəbərə çevirməsinlər, faktlara əsaslansınlar. Ən azı yazılarında qəti imkan tədbiri seçib özlərini çətin duruma salmasınlar. Çünki, İsmayıllı rayonunda orta sahibkarlıq inkişaf etdirilir, rayon icra hakimiyyətinin imkanları daxilində sahibkarlara ən yüksək səviyyədə köməklik edilir. Rayon vətəndaşları qəbul günləri qəbul edilir, problemləri dinlənilir. Kənd icra nümayəndələri yerlərdə insanlarla hörmətlə davranır. Bu kimi onlarla halın haradan qaynaqlandığını düşünmək yetərlidir. Mirdamət Sadıqovun mədəni səviyyəsi nəfsindən irəli gələn bütün məsələləri üstələyir. O, sahibkarlıq subyektlərini incitmir, narahatçılıq yaratmır, hər hansı bir MMC-si yoxdur. Belə olan halda nədən ondan tənqid yazılır, ictimaiyyətdə sonradan özünü doğrultmayan fikirlər ortaya qoyulur, tənqid ucuzlaşdırılır?!

Məsələn, İsmayıllıda insanların ayağa qalxacağı oxucuya vəd olunur, sonradan heç nə baş vermir. Bəzi saytlar İsmayıllı insanını özlərinə sipər seçənlərə dəstək olur, onların adından spikulyasiya edənləri qısa müddətli sevindirirlər. "Məqalələrində" vətəndaşların Mirdamət Sadıqovdan narazı olduğu vurğulanır, amma bunlar sonradan özünü doğrultmur, şayə olaraq qalır.

Məlumdur ki, bu xəbərləri saytlara çatdıran jurnalist Elçin İsmayıllı və sahibkar Rauf Həsənovun fikirləri ictimai rəyə təsir etmək məqsədi daşıyır, amma ötəri olub ictimai rəydə sonradan özünü doğrultmur. İsmayıllıların adından hər iki şəxs danışır, ətraflarında özlərindən başqa heç kimi görə bilmirlər. Ola bilər, İsmayıllı rayonunda bir neçə şəxs və ya sahibkar rayon rəhbərliyindən narazı olsun. Bir adamın hamı üçün arzuolunan şəxsə çevrilməsi mümkünsüzdür. **Bu o demək deyil ki, bütün İsmayıllı əhalisi icra başçısından narazıdır. Elçin İsmayıllı və Rauf Həsənovun özlərinə sərf şəkildə şəxsi bir neçə məsələni ümumiləşdirib ismayıllıların adına çıxması səbəbsiz deyil (bu başqa bir yazının mövzusudur). Əslində hər iki şəxsin cəmiyyət həyatına ümumi şəkildə ismayıllılar adından istiqamətləndirdikləri fikirlər icra başçısına deyil, ismayıllılara hörmətsizlikdir.** Çünki, onların adından istifadə edilir, yuxarı dairələrə edilən şikayətlərə özlərindən başqa imza atan tapa bilmirlər. Amma ismayıllılar adından dayanmadan danışırlar. Sual olunar ki, Sizlər üç il bundan qabaq nədən danışmır, yazmır, susurdunuz?! Məgər İsmayıllı insanlarının sosial, iqtisadi, mədəni və s. həyatı hazırki vəziyyətdən yaxşı olub, onda rayonda su, işıq, qaz problemi yox idi, yollar, parklar qaydasında olub əhalinin istifadəsinə verilmişdi?! Demək ki, şəxsi istək və arzularınızı reallaşdırmaqdan ötrü ismayıllılar adından hazırda danışır...onları aldatmaq istəyirsiniz! Amma hər ikiniz unudursunuz ki, xalqı aldadanların özləri xalqdan bir əsr geri düşüb.

**Daha praktik bir misal çəkək. Heç kimə sirr deyil ki, rayonlarda insanlar rayon rəhbərliyi ilə aralarında yaranan problemlər, rəhbərliyin özbaşınalığı ilə bağlı Azərbaycan Respublikası Prezident Adminstrasiyasına şikayət göndərirlər. Və bu şikayətlər qeydiyyata götürülür, sonradan Prezident Adminstrasiyasının Sənədlərlə və Vətəndaşların Müraciətləri ilə əlaqədar şöbəsi tərəfindən ictimaiyyətə ildə**



**iki dəfə yayımlanır. Bilirsinizmi, bu halın özündə də həm islaholunma, həm də ictimai nəzarətin həyata keçirilməsi, ictimai qınaq da dayanır. Respublika vətəndaşları bilsin ki, hansı rayonlardan insanlar daha çox şikayət edir. Bunu da KİV-lər dərc edir. Belə şikayətlərin qrup halında, yoxsa fərdi qaydada olduğu aşkarlanır. Fevral ayında belə bir açıqlama Prezident Adminstrasiyasının şöbə müdiri Süleyman İsmayılov tərəfindən edildi. Siyahıda İsmayıllı rayonunun adı qeyd olunmamışdır.** Buradan da aydın olur ki, İsmayıllı rayonunun insanları indiki icra başçısı Mirdamət Sadıqova hörmətlə yanaşır. Nəticədən isə məlum olur ki, Mirdamət Sadıqov insanları narazı salmır, çalışan qədər onlara qayğı ilə yanaşır. Bu da qarşılıqlı etimaddan doğur, uzun müddət insanların dərk etməsində iz buraxır. Belə olan halda Mirdamət Sadıqov qərəzli şəkildə niyə tənqid olunur?!

**İkincisi, vətəndaş-məmur münasibətlərini tənzimləyib, ictimai nəzarəti həyata keçirən vasitələrdən biri də mətbuatdır. Məmurun hərəkətinin ictimailəşməsinin aparıcı katalizatoru da mətbuatdır. Bu səbəbdən istənilən məmurun hərəkətləri və idarəetməsi pis halda mətbuatın qınağına tuş gəlmək məcburiyyətində qalır. Bu isə mətbuata dair müsbət haldır. Mətbuat yalan yazırsa, xəbərin ictimai müzakirəsi olmur, məmur həm də oxucular üçün mətbuat adiləşir, hörmətdən düşür.** Məgər, "Yazılan tənqidi məqalələrə reaksiya verilmir", "Mətbuatdır, yazır yazsın, onların da peşəsi yazmaqdır", və yaxud "Mətbuatın yazısı ilə məmurları işdən çıxarsaydılar, bütün məmurlar işdən çıxmış hesab edilməli idi" və s. belə məzmunlu fikirlərə media orqanlarında çalışan şəxslər azmı təsadüf edir. Qısası ölkə prezidentinin etimad göstərib, İsmayıllı rayonuna göndərdiyi dəyərli bir professoru saytlarda əsassız yerə tənqid edirik, qaralayırıq. Nədən nəzərdən qaçırırıq ki, vəzifəmiz təkcə vətəndaşlara xəbər çatdırmaq deyil, həm də xəbərin hansı səbəbdən qaynaqlana biləcəyini araşdırmaqdan ibarətdir. Hasil olan qənaət isə deməyə əsas verir ki, bəzən KİVnümayəndələri barədə fikir də səslənir, onlar yaxşı ilə pisi ayırd edə bilmirlər.

Bəlkə yalan yazdıq deyilsin, fikirlərimizi ən kiçik elementlərə qədər əks əlaqə qanununun harada tamamlanmağı səbəbi ilə əsaslandıraq.

**Fuad İsgəndərov**

# Kolleclər üçün yeni dövr başlayır...

**Təhsil naziri Mikayıl Cabbarovun əmrinə əsasən ali və orta ixtisas təhsil şöbəsinə aid kolleclərdə qış və yay sessiya imtahanları ilə bağlı gözlənilən sükut pozulub. İmtahan sessiyasının şəffaf keçirilməsi barədə göstərişlər veriləndən sonra tələbələrdən sessiya imtahanlarına pul yığılması müəyyən qədər çətinləşib.**

Pul qazanmaq istəyən kollec direktorları qarşısında problemlər yaranıb. Lakin bəzi kollec direktorları, əvvəllər olduğu kimi, bu yay semestr imtahanı da tələbələrin pul kisəsinə göz dikiblər. Bəzi kollec rəhbərləri hələ də "Tələbə kimdir, pulsuz sessiyadan sessiyaya keçirilsin" devizinə sadiqdirlər. Belə halların sonradan üstü açılandan sonra Təhsil Nazirliyi bir çox kolleclərlə bağlı tədbir görmək qərarına gəlir.

Əldə etdiyimiz məlumatlardan belə aydın olur ki, Təhsil nazirinin prinsipiallığı əksər kolleclərdə müvafiq sessiya imtahanları zamanı şəffaflığı hardasa təmin edir. Hələlik, əksər kolleclərdə tə-



ləbələrdən rüşvət götürülmür. Bu vəziyyətdən sui istifadəyə yol verən kollec direktorları olsa da, onlar da müəllimlərin əli ilə iş aparırlar ki, "tutduqları əməllər"dən peşmançılıq hissi keçirməsinlər.

Bir az əvvəl aldığımız məlumatlarda bildirilir ki, Təhsil Nazirliyinə aid əksər kolleclərdə mərhələli yoxlamalar aparılacaq. Bu təhsilin səviyyəsini qaldırmaq, bu kimi müəssisələrə olan inamsızlığı aradan götürmək üçün planlı şəkildə olacaqdır. Burada Maliyyə Nazirliyinin apardığı yoxlamalar da əsas götürüləcəkdir. Ümumiyyətlə, artıq ödəmə, təyinatdan yayındırma və s. maliyyə pozğunluğuna yol verən kollec direktoru tutduğu vəzifədən azad olunacaqdır, əməllərinə hüquqi qiymət veriləcəkdir. **Məsələn, Yoxlamalar Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci, Sumqayıt Dövlət Texniki Kolleci, Şəki Musiqi Kolleci, Gəncə Musiqi Kolleclərində aparıla bilər. Bakıda yerləşən Maliyyə İqtisad Kollecində isə aparılacaq yoxlamaların nəticəsi direktor Həmzə Ziyadovu işindən edə bilər. Çünki, bu təhsil müəssisəsinə görə insanlarda yaxşı fikir yaranmayıb. Altı il bundan qabaq tələbədən rüşvət istəyən müəllimin bıçaqlanması, bu yaxınlarda təkrar olaraq Maliyyə İqtisad Kollecində oxuyan bir tələbənin Texniki Kollecin həyətində bıçaqlanmasına dair yaranan fikirlər kifayət qədər rezonans doğurub. Bu vəziyyət Həmzə Ziyadov barəsində ölçü götürülüb onun kollecdən uzaqlaşdırılması üçün zəmin yaradıb. Neçə illərdən bəri Maliyyə İqtisad Kollecində hökm sürən rüşvət halı cəmiyyətdə yaxşı məna kəsb etməyib. Həqiqi mənada bu kollecə görə Təhsil Nazirliyinin adına bir neçə dəfə xələl də gəlib. Çünki, Həmzə Ziyadov kolleci bazara çevirib.**

Bütün hallarda kolleclər üçün yeni dövr başlayır demək də mümkündür. Bu da təhsilə möhtəkir maraqlarından yanaşan direktorlara əlavə problemlər yaradacaqdır. Onlar ötən illərdə etdiklərini bundan sonra edə bilməyəcəklər. Təhsildə tələbəyə gəlir mənbəyi kimi yanaşmaları, saxta diplom vermələri kifayət qədər çətinləşəcəkdir.

Onu da nəzərinizə çatdıraq ki, indiyə qədər kolleclərdə saxta diplomlu kifayət qədər şəxslər işə götürülüb, qəbul planından əlavə tələbələr qiyabi, istərsə də əyani şöbələrə daxil ediliblər. Dövlət vəsatinin mənimsənilməsi ştat vahidlərində, təlim - tədris prosesində mövcud olan nöqsanlar kolleclərə rəhbərlik edən əksər direktorların məsuliyyət hissindən kənarda qoyub. Onların qış və yay sessiya imtahanlarında 100 min manat rüşvət toplamaları asan olub, onlara heç nə deyilməyib. Bu səbəblərdən bütün məsələlərin nəzarətdə saxlanacağı, İlk Peşə və Orta İxtisas Təhsili Şöbəsi tərəfindən ciddi tədbirlər görüləcəyi bildirilir. Gözləyək görək, yaxşılığa doğru nə isə dəyişəcəkmi?!

**İnformasiya şöbəsi**

# Azercell tərəfindən göndərilən bezdirici SMS-lər tənzimlənə bilərmiş...




**Ən bahalı telefon danışığı mobil operatorlarından Azercell tərəfindən həyata keçirilir. Açığı dünyanın heç bir yerində 1 dəqiqəsi 7 qəpiyə danışıq tarifi yoxdur. Hazırda Azercelldən digər operatorlara çıxış 1 dəqiqəsi 14 qəpiyə başa gəlir. Bunun isə bir adı var: "Mədəni soyğunçuluq". Digər tərəfdən şəbəkədaxili 47, 49, 51, 53, 57 saniyə danışığa abunəçilərdən yuvarlaq olaraq 7 qəpik çıxılır. 22-23 saniyə şəbəkədaxili danışarkən 4 qəpik çıxılır.**

Bu kimi hallar yavaş-yavaş abunəçilər tərəfindən haqlı narazılığa səbəb olur, onlar digər operatorlara da üz tutur. Mobil danışıq bazarında hələ də dominantlığını qoruyub saxlayan Azercell şirkətinə Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən çox yumşaq ölçü götürülür. Hər dəfə nazirlik sözlə kifayətlənir. Və bu kimi hallarda operatorlar arasında rəqabət mühitinin normal inkişafına xələl gətirilir. Nazirlik isə 1 dəqiqəsi 7 qəpiyə olan danışığın aşağı salınmasında hardasa maraqlı tərəf kimi görünmür. Düzdür, Azercell dövlət qulluqçularına 1 dəqiqəsi 3 qəpiyə olan danışığı reallaşdırıb, amma etiraf edilməlidir ki, belə dövlət qulluqçuları çox məhdud saydadır.

**Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini İltimas Məmmədov ötən il mətbuata açıqlamasında etiraf etdi ki, mobil operatorların vətəndaşları aldatdığını üzə çıxarıblar. Hətta qabağa gedərək "Gördük, mobil operatorlar vətəndaşlarımızı aldadır" fikrini söyləməklə açıq mesaj verdi.** Bütün bu kimi faktların ortada olub təsdiqləndiyi etiraf edilsə də, nə mobil operatorlar arasında qiymətlər aşağı salınır, nə də ki, şəffaflıq təmin olunur. Danışıq zamanı saniyələr uçur, abunəçilər aldadılır, amma nazirlik rəsmiləri abunəçilərin xeyrinə heç nə edə bilmir.

Digər bir problemli məsələ isə abunəçilərə göndərilən SMS-lərin qanunvericilik daxilində tənzimlənməməsidir. Hər gün Azercell tərəfindən 8228-dən 6 milyona yaxın abunəçisinə təhrikedici, həm də xahiş dolu nidalar basılmağa başlanır. 2729-a boş SMS göndər, Xəzər TV-ni izlə, Lexus, Prado markalı avtomobil, 1000 manat pul, LG televizoru və daha nələr sənin olsun...Və ya cəmi 1 SMS sənə Toyota Prado gətirə bilər! Və yaxud, son zamanlar yeni məzmunlu SMS-lər də göndərilir. Məzmunca bir-birini təkrarlayan SMS-lər təhrikedicidir. Cəmi 1 SMS-lə sən bu gün 1000 AZN qazana bilərsən! 2729-a SMS göndər, cavabı izlə! 5 qəpik. **Elə ki, 5 qəpik dəyərində olan 1 SMS-i göndərirsən, 8228-dən gələn şirnikləndirici SMS-lərin gün ərzində oxucusu olursan. TOYOTA Corolla avtomobilini sənə arzulayırıq! Elə bil məxsusi seçilmişəm. Və yaxud, bu gün sənin 1 SMS-in TOYOTA-ya çevrilə bilər! Həyatını 1 SMS-lə dəyiş! Qazanmaq üçün şansını qaçırma! Cəmi 1 SMS sözü abunəçini şirnikləşdirən fikirdir. Yəni, abunəçi fikirləşir ki, 2-ci SMS-i göndərməyəcəm, 5 qəpiyə çox şey udub həyatımı dəyişəcəm. 5 qəpikdən başlanan torasalınma prosesi 15-20 manata qədər abunəçilərin balansından pullarını silir, ortada da heç nə olmur. Amma abunəçiyə mesaj göndərilsə ki, bu bir oyundur, bu günki uduş fondundakı məbləğ, hədiyyə, maşın və s. 10 nəfərə qismət olacaq. Bəlkə, sənin də qismətinə çıxdı. Onda abunəçi bilər ki, məsələ nə yerdədir, ona göndərilən mesajlarla ona hörmət edilmiş olur. Yoxsa, abunəçi hazırda ona göndərilən mesajlardan elə başa düşür ki, o məxsusi seçilib və Azercell ona Lexus və ya Prado uddurmaq istəyir. Çünki, hamı azərbaycan dilinin dərinliklərini bilmir ki, göndərilən mesajları anlasın və aldadılmasın. Nədən Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəsmiləri bu kimi halları hələ də müşayiət edir? Axtarsaq, Azercellin tərəfini tutur, dolayısı yolla şirkəti müdafiə edir.** Digər inkişaf etmiş ölkələrdə 10 milyon belə oyunlardan pul qazanılırsa, məbləğin ən azı 50%-i uduş fonduna qoyulmuş olur. Onda şirkətə maraq artır, vətəndaşlar belə oyunlarda maraqlı olur və davamlı mesajın göndərilməsinə bir o qədər də ehtiyac qalmır. Bizdə isə belə deyil, nazirlik Azercell şirkətinə danışıq tariflərinin aşağı salınması, abunəçilərə pulsuz dəqiqələr verilməsi kimi məsələləri davamlı şəkildə qaldırmır, ictimaiyyətə məlumat vermir. 1 dəqiqəsi 7 qəpiyə olan danışıq qiymətlərinin hansı ölkədə olduğunu, Azərbaycan Respublikasının vətəndaşlarının nədən müstəsnalıq təşkil edildiyini, şirkət nümayəndələrinə açıq bəyan etmir. Millət vəkillərinin də dilə gətirdiyi 8228-dən gələn SMS problemi hələ də qanunvericiliyə müvafiq maddələrin əlavəsi ilə tezləşdirilmir.

**Yeri gəlmişkən, "Fakt" qəzetinin 16 sentyabr 2014-cü il tarixli 118 nömrəli sayında dərc edilmiş "Azercell pul qazanır, abunəçilər pis vəziyyətdə qalır" başlıqlı məqalə baxılması üçün Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə göndərilmişdir. Nazirlikdən aldığımız 9/153/577 saylı məktubda açıq deyilir ki, SMS-lərin göndərilməsi mobil operatorlar tərəfindən, eləcə də mobil operatorlarla digər hüquqi və fiziki şəxslər arasında bağlanmış müqavilələrə əsasən həyata keçirilir.** RYTN tərəfindən hansısa şirkətə hüquqi və ya fiziki şəxsə SMS-lərin göndərilməsi səlahiyyətlərinin verilməsi mövcud qanunvericilikdə tutulmamışdır. Yəni, bu o deməkdir ki, hələ vətəndaşlar özlərinin başının çarəsinə baxsınlar. Amma bunun problem olduğu da qəbul edilir, inkar edilmir. Məktubda o da qeyd edilir ki, problemlə bağlı vətəndaşlardan, eləcə də Milli Məclisdə müzakirələr nəticəsində RYTN ünvanlanmış müraciətlər nəzərə alınaraq, ümumi istifadəli telekommunikasiya şəbəkəsi üzərindən reklam və əyləncə xarakterli SMS-lərin (abunəçilər arasında göndərilən və qəbul edilən mesajlar istisna olunmaqla) abunəçilərə kütləvi və avtomatik olaraq göndərilməsinin yalnız abunəçinin ilkin razılığı alındığı halda həyata keçirilməsi və s. barədə qanunvericiliyə müvafiq maddələrin daxil edilməsi üçün RYTN tərəfindən təkliflər hazırlanmışdır, hazırda razılaşma mərhələsindədir. Bizi qınamayın, necə olur ki, RYTN bir gecənin içində 2014-cü il yanvar ayının 1-dən hüquqi və fiziki şəxslərin istifadəsində olan telefonların aylıq abunə pulunu 2 dəfədən də artıq qaldıra bilir, özlərinin də qeyd etdiyi kimi SMS problemini bir ilə yaxındır həll etmir, uzadır? Nədir, bunlar həllini gözləyən problemlər deyil?!

**Azercell ötən həftə məlumat yaydı ki, bezdirici SMS-lərin qarşısı alınacaq. Abunəçi 9005 nömrəsinə "stop" və ya "boş sms" göndərməklə bunun qarşısını alacaq. Buradan isə bir daha aydın olur ki, abunəçilərə göndərilən bezdirici SMS-lər tənzimlənə bilərmiş. Çünki SMS-lərin bezdirici olduğunu şirkət olaraq özləri də inkar etmirlər.**

**Fuad İsgəndərov**

## Nazirdən büdcə açıqlaması

"Neftin qiymətinin azalması əsasən ölkənin tədiyə balansına mənfi təsir edib"



**"2015-ci il dövlət büdcəsi proqnozlaşdırılarkən neftin qiyməti 90 dollardan götürülmüşdü, lakin indiki vəziyyətdə aydındır ki, bu rəqəm bir qədər yüksəkdir. Bu isə dövlət büdcəsinin gəlir hissəsinə mənfi təsir edir".**

ANS PRESS-in məlumatına görə, bunu maliyyə naziri Samir Şərifov deyib. O bildirib ki, neftin qiymətinin azalması əsasən ölkənin tədiyə balansına mənfi təsir edib:

"Amma Azərbaycan 2015-ci il dövlət büdcəsinin proqnozlarına dəyişikliklər edilməsi üçün hələ səbəb görmür. Qanunvericilikdə müəyyən meyarlar var. Bu meyyarlardan sonra dəyişikliklər edilməsi lazımdır. Biz büdcədən daha səmərəli istifadə etmək istəyirik. Bununla belə, investisiya layihələrinin reallaşdırılmasını ləngitməyi planlaşdırırıq, yəni bəzi həmin layihələri gələn ilə keçirməyi nəzərdə tuturuq".

Nazir qeyd edib ki, təsdiq olunmuş büdcə yüksək səmərə ilə icra edilir: "Lazımsız xərclərə yenidən baxırıq. Bu xərcləri azaldırıq və bəzi infrastruktur layihələrini növbəti ilə saxlayırıq. 2015-ci ilin I rübünün yekunlar göstərir ki, Azərbaycan bütün sosial vəzifələrin həyata keçirilməsini təmin edib", - deyə nazir vurğulayıb.

## Mikayıl Cabbarov əmr imzalayıb

"Bakıda bütün dərslər və imtahanlar mayın sonunadək yekunlaşacaq"

**Təhsil naziri Mikayıl Cabbarov bu il Bakıda dərslərin vaxtından əvvəl başa çatması ilə bağlı məsələyə münasibət bildirib.**

APA-nın xəbərinə görə, nazir bildirib ki, iyunun 12-də Bakıda ilk dəfə olaraq, Avropa Oyunlarının keçirilməsi ilə əlaqədar Nazirlər Kabineti dərslərin müddəti ilə bağlı qərar verib. Təhsil naziri qərarın icrasına dair əmr imzalayıb: "Əmrə əsasən, mayın sonunda dərslər, həmçinin ali və orta ixtisas məktəblərində imtahan sessiyaları başa çatdırılacaq. Bu, öncədən plandaşdırılmış addım idi. Həm ali, həm də orta ixtisas, həm də orta məktəblərin rəhbərlərinin, eləcə də təhsil alanların bu barədə öncədən məlumatı var idi və bütün məlumatlar ictimaiyyətə təqdim edilib". Son zənglə bağlı məsələyə də münasibət bildirən nazir qeyd edib ki, son illərdə bu məsələdə qərar təhsil müəssisələrinin öhdəliyinə buraxılıb: "Amma bununla bağlı may ayında əmr imzalanacaq. Bununla da son zəngə dair bütün məsələlər tənzimlənəcək".

## Nazir yenə xəbərdarlıq edib

"Xaricdə təhsil təklif edən şirkətlər sui-istifadə hallarına yol verir"

**Təhsil Nazirliyi müəllimlərlə bağlı başlanılan islahatın davamını təmin etmək üçün Nazirlər Kabinetinə təkliflər təqdim edib.**

Hazırda region müəllimlərinin sınaq qiymətləndirilməsi ilə bağlı təkliflərə hökumət tərəfindən baxılır. Lent.az-ın məlumatına görə, bunu təhsil naziri Misir Mərdanov bildirib. Nazir həmçinin azərbaycanlı gəncləri xaricdə təhsilə cəlb edən müəyyən şirkətlərlə bağlı da açıqlama verib: "Bir müddət öncə Təhsil Nazirliyinin yaydığı açıqlama Azərbaycanda fəaliyyət göstərən və pullu xidmət kimi xaricdə təhsili təklif edən şirkətlərlə bağlıdır. Açıqlamanın məqsədi ondan ibarət idi ki, 2007-2015-ci illərdə azərbaycanlı gənclərin xaricdə təhsili üzrə Dövlət Proqramına qəbul aparmaq üçün Təhsil Nazirliyi heç bir şirkətlə əməkdaşlıq həyata keçirmir. Çünki bəzi hallarda sui-istifadə hallarına yol verilir, bəzi qurumlar və şəxslər bunu fərdi şəkildə təklif edir. Bu baxımdan biz faydalı hesab etdik ki, vətəndaşların diqqətinə bu məsələni çatdıraq".

# Nazir etimad göstərdiyi TSEK sədrlərini də işdən çıxarır?



**Cəlilabad-Biləsuvar rayonlarını əhatə edən 30 saylı TSEK-in sədrinin həbsi son bir həftə ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümovun TSEK sədrlərinə qarşı nəzarət tədbirlərini gücləndirməsi ilə müşayiət olunur, bu sahəyə dair əvvəllər yol verdiyi səhvlərin aradan qaldırılmasından xəbər verir.**

Bu onunla izah olunur ki, nazir Səlim Müslümov Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tabe rayon ƏSMM işini yaxşı bilir və bu idarələrin fəaliyyət spesifikasiyası əvvəllər onun sədri olduğu Azərbaycan Dövlət Sosial Müdafiə Fondunun rayon şöbələrinin gördüyü işlərə hardasa yaxındır. Nazir üçün qaranlıq qalan və ən zəif yeri olan TSEK-lərdir. Elə nazirin narahatçılığı da bundan irəli gəlir və həkim peşəsinə dərindən bələd olmadığı üçün hər zaman TSEK-lərin fəaliyyəti onun üçün hardasa narahatçılıq yaradır. Yeri gəlmişkən, TSEK-lər, ƏƏSMN-dən alınaraq Səhiyyə Nazirliyinə verilməsinə dair iddialar da var. **Nazir olduğu ilk aylarda TSEK-lərə dair yol verdiyi səhvlərin aradan qaldırılmasında qərarlıdır. Düzdür, heç kim inkar edə bilməz, Səlim Müslümov keçmiş nazir Füzuli Ələkbərovun dövrünü qabaqlayaraq bir çox uğurlara imza atıb, bu sahəyə dair narazılıq yaradan problemləri mümkün qədər həll edib.** O qabağa gedərək TSEK sədrlərinə verilən arayışda olan problemləri aradan qaldırıb. Hətta, onkoloji xəstələrə əlilliyin müəyyən edilməsi zamanı arayışların 500 manata satılmasını aradan qaldırıb, Füzuli Ələkbərovun iştirakına dair belə xoşagəlməz vəziyyəti TSEK sədrlərinin başına gətirən şəxsləri nazirlikdən uzaqlaşdırdı. Onun bu yanaşmasını Səlim müəllim tərəfindən işdən çıxarılmış TSEK sədrləri belə müsbət qiymətləndirdilər. Bu kimi halları nazirin uğuru kimi xarakterizə edənlər də vardı. Lakin yuxarıda qeyd etdiyimiz kimi, yeni nazir də səhvlərə yol verdi. Ola bilsin nazir ətrafına inanır, ya da bilmədən səhvlərə yol verirdi. Məsələn, birdən-birə 14 rayon TSEK sədrini dinləmədən zaldan kənarlaşdırması səhvlərinin başlanğıcı idi. Çünki, işdən azad etdiyi TSEK sədrlərinin içində işini mükəmməl bilən təcrübəli həkimlər, onları əvəz edən qadın və ya kişi həkimlərlə müqayisə olunmayacaq dərəcədə savadlı şəxslər olub. Yeni nazirin onları hansı səhvlərinə görə işdən çıxarması onlara da qaranlıq olaraq qalıb. Onlara qarşı hər hansı rüşvət ittihamının irəli sürülməsi məntiqsizdir. Yeni TSEK sədri təyin olunan şəxslər daha çox rüşvətə meyllidir. Çünki qadınların tamahı, kişilərdən qatqat üstündür. Məsələn, biraz əvvəl Gəncə 25 saylı, 34 saylı İmişli, Saatlı rayonlarını əhatə edən TSEK barədə nələr yazılmadi ki?! Qanuna müvafiq şəkildə araşdırılsa, hamısı həqiqətdir. Nə isə...

**Qayıdaq işdən çıxartdığı səxslərə dair məlum müşavirədə nazirin irəli sürdüyü arayış məsələsinə, bu məsələyə Səlim Müslümov deyə bilərdi ki, yoldaş, sizdə 800-1000 iş niyə yığılıb qalıb? Əlbəttə ki, hər şey buradan aydın ola bilərdi... Və o da aydın ola bilərdi ki, bu məsələlərdə bəzi TSEK sədrlərinin günahı olmayıb. Məsələn, Tovuz 28 saylı TSEK sədri Yaşar həkim əlilliyin müəyyən edilməsinə dair əsasnamənin bütün tərəflərinə lazımi şəkildə yanaşsa da işdən çıxarılıb. Onun qısa zaman işləməsinə baxmayaraq, özündən əvvəlki TSEK sədri ilə müqayisədə əlilliyin müəyyən edilməsində ən aşağı faizi əks etdirib. Əlavə olaraq, təkrar komissiyalara müraciət edən xəstələrin 15%-ni 2-ci qrupdan 3-cü qrupa keçirməklə dövlət vəsaitinə qənaət edib. Hazırda Tovuz 28 saylı TSEK-ə rəhbərlik edən Arif Səmədov barədə həqiqəti əks etdirən KİV-də faktlar ortaya qoyulur. Hansı tədbir görülür ki?...**

Gəncə 25 saylı TSEK sədri olmuş Firudin Orucov, o cümlədən Goranboy, Naftalan rayonları üzrə TSEK sədri işləmiş Əmirxan Aslanov, Mingəçevir şəhərində TSEK sədri işləmiş Şahin həkim maksimum şəkildə xətasız işləyən peşəkar həkimlər kimi xarakterizə olunurdu. Bu şəxsləri əvəzləyən TSEK sədrləri barədə KİV-də yer alan yazılar ən məlumatsız adamda da ilkin təsəvvür yaradırdı ki, köhnələrə yenilərlə müqayisədə bəraət qazandırasan. Hazırki xanım TSEK sədrləri barədə mətbuatda daha hansı faktlar ortaya qoyulmadı ki? Bunları inkar etmək də düzgün deyil. Amma həqiqət birdir ki, F.Ələkbərovun dövründə işləyənlərə işdən çıxardılan zaman nazir söz haqqı vermədən zaldan kənarlaşdırdı. Onda Səlim Müslümov fikirləşməli idi ki, hazırda onun intibah dövrüdür, bunun qürub zamanı da var. Yəni, bu dünyanın günəşi olduğu kimi, küləyi, çovğunu, qarı da olacaq.

**Ən praktik bir misal. Nazir deyə bilərdi ki, 34 saylı Saatlı, İmişli rayonlarını əhatə edən TSEK-in sədri Məmmədəli həkim, qalx ayağa! Niyə sizin stolunuzun üstündə indiyə kimi 840 iş yığılıb qalıb? Niyə indiyə qədər bu şəxslərə əlillik dərəcəsi müəyyən etməmisiniz? Onda nazir Səlim Müslümova maraqlı olan nüanslara aydınlıq gətirilərdi. Yeni nazir bilərdi ki, 34 saylı TSEK-in sədri 840 işi özündən əvvəlki, həm də nazir Səlim Müslümovun bu yaxınlara kimi etimad göstərdiyi Nizami rayon 7 saylı TSEK-in sədri Kamil Məmmədovdan təhvil alıb. Arayış ala bilmədiyindən, daha doğrusu arayışı 500 manata satdıqları üçün onlara əlillik müəyyən edə bilməyib və 840 iş Kamil Məmmədovun problemləridir. Və necə ola bilir ki, Kamil Məmmədov Nizami rayon 7 saylı TSEK-də 2014-cü il dekabr ayının sonuna kimi qalıb işlədi, Məmmədəli həkimə zalda söz haqqı tanınmadan işindən azad oldu? Bu kimi onlarla misal gətirmək olar.**

Deməк, ya nazirə yanlış məlumat verilib, ya da nazir özü səhvə yol verib və bu səhvlərindən birini 2014-cü ilin dekabrında Kamil Məmmədovu işdən çıxarmaqla düzəltdi. Görünür, Biləsuvarda ötən həftə baş verən məlum xoşagəlməz hadisə Səlim Müslümovu pərişan edib. Və indi onun özü tərəfindən təyin olunan TSEK sədrləri haqqında ciddi tədbir görmək istəməsi də buradan irəli gəlir. Və yaxud nazir müavini İlqar Rəhimovun Tibbi Sosial Ekspert Komissiyalarının işinə dair savad və təcrübəsindən faydalanmaq yanlışlarını düzəltməkdə israrlıdır. Səlim Müslümov Füzuli Ələkbərov kimi davamlı şəkildə səhv etmək istəmir.

**İnformasiya şöbəsi**

## Umarovun adamı öldürüldü

Rusiya Antiterror Komitəsi Kebekovun öldürüldüyünü təsdiq edib



**Dağıstanda "Qafqaz əmirliyi" qruplaşmasının lideri Doku Umarovun davamçısı Əliashab Kebekov öldürülüb.**

ANS PRESS-in məlumatına görə, Rusiya Antiterror Komitəsi Əliashab Kebekovun öldürüldüyünü təsdiq edib.

"Məhv edilmiş quldurlar bunlardır: 1972-ci il təvəllüdlü Əliashab Kebekov - "Qafqaz əmirliyi" terror təşkilatının rəhbəri Doku Umarovun zərərsizləşdirilməsindən sonra onu əvəzləmişdi; 1982-ci il təvəllüdlü Şamil Hacıyev - respublikanın Untsukul rayonu ərazisində gizli silahlı qruplaşmaya rəhbərlik edirdi. 1980-ci il təvəllüdlü Omar Maqomedov - gizli qruplaşmanın Dağıstandakı "mərkəzi sektoru"nun rəhbəri olub.

Beləliklə, "Qafqaz əmirliyi" terror təşkilatının və Şimali Qafqaz ərazisində fəaliyyət göstərən cinayətkar qruplaşmanın rəhbərliyi məhv olunub" - deyə komitənin məlumatında deyilir.

## Peskov Putinin İrəvan səfərindən danışdı

"Putinin səfəri "Türk axını" lahiyəsinin tikintisinə mənfi təsir göstərməyəcək"

**Vladimir Putinin "erməni soyqırımı"nın 100 illiyi ilə əlaqədar İrəvana səfər etməsi Türkiyə və Rusiya əlaqələrinə təsir etməyəcək. ANS PRESS-in məlumatına görə, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.** Onun sözlərinə görə, Putinin səfəri "Türk axını" layihəsinin tikintisinə, eləcə də Moskva və Ankara arasında münasibətlərin indiki səviyyəsinə mənfi təsir göstərməyəcək: "Rusiya ilə Türkiyə arasında qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın çox güclü bazası var. Bu sıx əməkdaşlıq fonunda həmçinin Rusiya ilə Türkiyənin dünyanın bir çox problemləri üzrə mövqeləri üst-üstə düşür".

## Məktəb direktoru haqda cinayət işi...

Respublika Baş Prokurorluğu bu barədə məlumat yaydı

**Ölkəmizdə təhsilin inkişafına kölgə salan korrupsiya və rüşvətxorluq kimi neqativ amillərlə mübarizə istiqamətində ardıcıl və təxirəsalınmaz tədbirlər davam etdirilir.**

Baş Prokurorluğun mətbuat xidmətindən ANS PRESS-ə verilən məlumata görə, R.Sadıqov adına Bakı şəhəri, 136 nömrəli tam orta məktəbin fəaliyyətinin yoxlanılmasına dair Təhsil Nazirliyindən daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Araşdırmalar zamanı orta məktəbin direktoru Lütfiyyə Qasımovanın vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə 2013-2014-cü tədris illərində ayrı-ayrı müəllimlərə işdə üstün şərait yaratmaq, dərs yükünün artırılması müqabilində hər ay onlardan müxtəlif məbləğlərdə pul almasında, habelə məktəbin bəzi müəllimləri işə gəlmədikləri halda onların guya məktəbdə dərs aparmaları barədə bilə-bilə rəsmi sənədlərə yalan məlumatlar daxil etməsində şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə istintaq tədbirləri aparılır.

# Rayonlarda demək olar ki, təhsil yoxdur, amma bu ad altında milyonlar mənimsənilir



**Təhsil hər bir dövlətin, cəmiyyət həyatının fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz.**

**Heydər Əliyev**

**Təhsil naziri Mikayıl Cabbarov təhsilin inkişafında bir çox uğurlara imza atmaq məqsədilə rayon təhsil şöbələrini rayon icra hakimiyyəti başçılarından almaq istədi. Amma buna nail ola bilmədi. Açığı rayon təhsil şöbələrinin əndazəni aşan müdirləri də Regional Təhsil İdarəsinin yaradılmasına razı deyildi, əksinə buna mane olurdular.**

Çünki, neçə illərdən bəri rayon icra hakimiyyəti başçıları, rayon maliyyə idarəsi rəisləri ilə əlbir təhsildəki mənimsədikləri milyonlarla dövlət vəsaitinin üstü açılar, kimlərinsə məsuliyyətə cəlb olunmaları baş verə bilərdi. Düzdür, müəyyən kəsim rayon təhsil şöbə müdirləri var ki, onlar qanundan kənar hərəkət etməkdə israrlı deyil, amma hardasa inanmaq olar ki, 70% rayon təhsil şöbə müdirlərinin "oğurladıqları" dövlət vəsaitinin üstü açılardı. Neftin dünya bazarında düşməsindən iqtisadi zərər görən respublikamız üçün "oğurlanan" milyon manatlarla dövlət vəsaitinin büdcəyə qaytarılması göydən düşmə olardı. Onlarla rayon təhsil şöbə müdirlərinə şərait yaradan rayon maliyyə idarəsi müdirləri də məsuliyyətdən kənarda qalmazdı. Təəssüf, çox təəssüf...

Digər tərəfdən onlarla təhsil şöbə müdiri rüşvət alıb məktəblərə yerləşdirdikləri minlərlə saxta diplomlu şəxslərin müəllim işləməsi üçün 10-15 min manat vəsaitin haqq-hesabına cavabdeh olardı. İkili mühasibatlıq sənədləri ilə işləyən bəzi təhsil şöbəsi rəhbərləri müəllim məvaciblərinin düzgün hesablanmamasına görə ifşa olunardı.

**Gəncə şəhər Təhsil Şöbəsinin ötkəm müdiri Zakir Hüseynovun Gəncə şəhər təhsilində özünəsərf və özünəməxsus şəkildə idarə etməsinə son qoyulardı. Təlim-tədris prosesinin geriləməsindəki vəziyyət barədə ondan soruşular, savadlı riyaziyyatçı Əyyub müəllimin Zakir Hüseynovdan nə üçün şikayətçi düşdüyü tərəfsiz araşdırılardı.** Gəncə məktəblərində saxta diplomlu müəllimlərin bilərəkdən nə məqsədlə orta məktəblərə yerləşdirdiyinə aydınlıq gətirilərdi. Gəncə 4 nömrəli rus məktəbində müəllimlərin hansı universitetləri bitirdiyinə dair balaca bir təftiş aparılardı. Və yaxud Şabran rayon Təhsil Şöbəsinin müdiri Emin Mövsümova 2014-cü ildə aldığı inventarlarla bağlı sual verilərdi ki, inventarları haradan almısınız? İnventarlar real bazar qiymətlərinə rəsmi sənədlərdə uyğun gəlirmi? 153.718 min manata alınan inventarın neçə il istismar müddəti ola bilər? Yoxsa Şabran rayon Təhsil Şöbəsinin olmayan təlim-tədris prosesi ilə eynilikmi təşkil edir alınmış inventarlar? Şabranın bir çox kənd məktəblərində müəllimlər dərsə gəlməyib, şagirdlərin ortalıqda qaldığı bir şəraitdə müəllimlərin məvacibini kim alır, kənd orta məktəblərinin qapısı nədən qıfıllıdır? TQDK 2013-2014-cü tədris ilinin buraxılış yekunlarını təhlil edərkən nəticələr Emin Mövsümovda hansı təəssüratlar yaratdı və Emin Mövsümov Bakıdakı dostlarından nələri xahiş etdi?

"Hacıqabul royonunda təhsil yoxdur" fikri yetərsaydır. Kənd orta məktəblərində baş verənlər mətbuatdan ictimaiyyətə bəllidir. Hacıqabul rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədovu təhsil, orta məktəblərdəki təlim-tədris prosesi, şagirdlərin dərsə davamiyyəti, müəllimlərin üzərinə düşən vəzifələrin yerinə yetirilməsinə nəzarət etməsi düşündürmür. Bir ayağı Bakıda olan Şükür Məmmədov bizneslə də məşğuldur. Daha doğrusu, vaxtı yoxdur ki, təhsilə zaman ayırsın, işlərini müavini aparır, müəllimlər də problemlərini müavinə deyir. Subyektiv fikrimizdir, müavininin təhsil şöbə müdiri işləməsi daha yaxşı olar.

**Ucar rayon Təhsil Şöbəsi barəsində də vəziyyət ürəkaçan deyil. Orada da təhsil yoxdur fikri yetərsaydır. Çünki, dövrünə görə rayon təhsil şöbəsinin müdiri Fuad İsrafilov 30 saat ədəbiyyat və digər fənlərə dair dərs yükü üçün 8-9 müəllim işə götürür. İndi ona sual verən lazım idi ki, dərs yükü yox idisə, bu müəllimləri nə üçün yığmısan bura? Qeyri-ixtisas sahibi olan "müəllimlər" Ucarda yüzlərlədir. Fuad İsrafilov da biznesmendir. Hətta onun adı bir ara rayona icra başçısı olmaqla hallanırdı. Ucar rayon Təhsil Şöbəsi barədə ayrıca bir mövzu ilə çıxış edəcəyik.**

Neçə illərdir ki, Masallı rayon Təhsil Şöbəsinin müdiri Astan İbişov barəsində mətbuat yazır, amma ölçü götürülmür. Redaksiyaların qəzet pullarına da göz dikən bu şəxs müəllimlərdən külli miqdarda abunə pulu adı altında vəsait yığır, KİV-də gündəmə gəlir. Həm qudası, həm də bacanağı olan Masallı rayon Maliyyə İdarəsinin müdiri ilə kifayət qədər qaranlıq maliyyə sövdələşmələri həyata keçirib. KİV buna dair onlarla fakt ortaya qoyub. Bircə o həqiqətdir ki, Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin 2011-ci il fərmanında göstərilib ki, təhsil şöbəsində yaş senzi ilə bağlı ümumi işçilərin 2%-i çalışa bilər. Masallı rayon Təhsil Şöbəsində 43 işçi olduğu halda, bu 0.86%-dir, yəni 1 nəfər yerinə 3 nəfər çalışıb. Məgər bunlar qanun pozuntusu, vəsait israfçılığına şərait yaradan əmsallar deyil? Kim vəsaiti buraxır bu kimi "işlərə"? Təbii ki, rayon maliyyə idarəsi!

Zaqatala rayonunda ali məktəblərə qəbul statistikası ilbəil aşağı düşür. Zaqatala rayon Təhsil Şöbəsinin müdiri Habil Qurbanov, Göygöl rayon Təhsil Şöbəsinin müdiri Elbrus Atayev il ərzində rayonda təhsilin inkişafına dair işlərlə məşğul olmaq əvəzinə təşkilati məsələlərlə maraqlanır, demək olar onlar təlim-tədris prosesindən uzaqdır. Yeri gəlmişkən, Habil Qurbanov barəsində saytlarda yazılan tənqidi yazılar onun rayon təhsili ilə maraqlanmadığını təsdiqləyir.

Lənkəran rayon Təhsil Şöbəsinin xanım müdiri Şahanə Əhmədovanı ümumiyyətlə təhsil deyil, gündəlik qazancı maraqlandırır. Bunu hamı bilir və Lənkəran təhsilinin kimə həvalə olunmasına, təhsilin nə zaman təhsili bilənə tapşırılacağına dair fikirlərlər ortaya qoyulur. Rayondakı təhsillə bağlı biabırçı vəziyyət Mikayıl Cabbarovun əldə etdiyi uğurları kölgələyir. Təsəvvür edin ki, nazir gənc kadrları rayonlara işləməyə göndərmək istəyir, rayonlarda isə vakant yerlər gizlədilir. **Yaşı 65-i ötmüş müəllimlərdən il ərzində aldıqları məvacibin 50%-nin geri alınması müqabilində işləməyə üstünlük verilir. Qocaman müəllimlər ümumiyyətlə dərsə gəlmir, gəldikdə isə dərsdə mürgüləyir, nəsillər isə təhsilsiz qalır. İki ildən sonra ali məktəblərə qəbul faizinin aşağı statistikasına, keçid ballarının aşağı salınmasına 50-60% abituriyentin 0-50 bal arasında "müvəffəqiyətinə" ictimaiyyət Mikayıl Cabbarovu günahkar biləcək. Daha deyilməyəcək ki, icra başçılarının başını sığalladığı mütləq 90% təhsil şöbə müdirlərinin təyin olunmasında Mikayıl Cabbarovun xəbəri olmayıb. Bəli, bəli...**

Amma o da şəksizdir ki, təhsilə biznes tərəfdən yanaşan təhsil şöbə müdirləri icra başçılarına sərf etdikləri kimi, özlərinə də pis gün ağlamayıblar. Məsələn, illik təhsilin icmal büdcəsinin "şişirdilməsi"nə şərait yaradılıb, milyon manatlarla dövlət vəsaitinin israfçılıqla xərclənməsi baş verib, məktəblərdə ştat vahidlərinə görə qanunsuz müavinətlər yazılıb, komplekslәşmə tələb olunan siniflərdə bu tələb aparılmayıb, artıq əmək haqqı yazılıb və vəsaiti özlərinə sərf şəkildə mənimsəyiblər. Siniflər qanunsuz olaraq yarımqrupa bölünüb, müxtəlif fondlara pul köçürülüb, "obnaliçka" olunub, amma bunların təhsilin inkişafına heç bir aidiyyəti olmayıb. Yeri gəlmişkən, Ağdam rayon Təhsil Şöbəsində aparılan yoxlamalardan sonra Cəbrayıl və Füzuli təhsilində də yoxlamalar aparılacağı barədə fikirlər var.

Sabirabad rayon Təhsil Şöbəsinin müdiri Elman müəllimin təhsildən xəbəri olmasa da, xanım müəllimlərə xüsusi yanaşma tərzində mahirdir. Elman müəllim krikumun mahiyyətini bilmir. Onda sual oluna bilər ki, bu şəxs rayonda təhsili necə idarə edir?

Nəhayət, qənaətimiz odur ki, belə gedə bilməz. Bəlkə də zamanı gəldikdə təhsil şöbə müdirləri təlim-tədris, təhsil prosesindəki acınacaqlı vəziyyətə dair sorğu-sual olunar. Hələlik, rayonlarda təhsil rəhbərlərinə hələ ki, təhsil yox, onların qarşısında qoyulan öhdəlikləri xətasız yerinə yetirilməsi lazımdır.

**Fakt**

**Tayvan kimi dövlətlər postindustrial ön sıralarına təsadüfən çıxmayıb. Burada sən demə, orta məktəb məzunlarının 30%-dən çoxu ali məktəb tələbələri olub və onu müasir dövlətə çevirən iqtisadiyyat yox, təhsil inkişaf meyllərinin düzgün qavranılması qanunilәşdirib.**

**Ramiz Mehdiyev**
**"Modernləşmə xətti" məqaləsi**

# Girovlarla görüş olacaq

## Şahbazın bacısı: "Xahiş etmişik ki, onlara bağlama göndərək"



**Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələri bu həftə girov kəlbəcərlilərə baş çəkəcək.**

Bu barədə ANS PRESS-ə ötən il Kəlbəcərdə ermənilərin girov götürdüyü Şahbaz Quliyevin bacısı İradə Quliyeva məlumat verib.

"Aprelin 17-də məktub yazıb Beynəlxalq Qızıl Xaç Komitəsinə vermişik. Bu həftə ərzində görüş olacağı gözlənilir. Görüşdə Şahbazdan məktub alıb bizə verəcəklərini gözləyirik. Komitədən xahiş etmişik ki, əgər mümkündürsə, onlara bağlama göndərək. Hələlik dəqiq bir cavab verməyiblər. Amma deyirlər ki, çətin ki, buna imkan verilsin".

Azərbaycan nümayəndəliyinin şöbə müdiri İlahə Hüseynova isə görüş haqqında yalnız görüşdən sonra məlumat veriləcəyini bildirib. "Saxlayan tərəf saxlanılan şəxslər üçün normal şərait təmin etməlidir. Əgər ehtiyac olarsa, Beynəlxalq Qızıl Xaç Komitəsi də bununla bağlı öz məsləhətlərini verə, aidiyyatı orqanlara müraciət edə bilər".

Xatırladaq ki, Ermənistan tərəfi öz doğma dədə-baba toqpaqlarına səfər etmiş kəlbəcərlilər Dilqəm Əsgərov və Şahbaz Quliyevi ötən ilin iyul ayında girov götürüblər. Qondarma Dağlı Qarabağ Respublikasında qurulan "məhkəmə"də isə Dilqəm Əsgərova ömürlük, Şahbaz Quliyevə isə 22 il həbs cəzası verilib. Onlarla birlikdə olan Həsən Həsənov isə ermənilər tərəfindən vəhşicəsinə öldürülüb.

# Putinin ən ağır günləri...

## Rusiya prezidenti həyatının ən çətin məqamlarından söz açıb

**Rusiya prezidenti Vladimir Putin Beslanda və Dubrovkadakı teatr mərkəzində baş vermiş terror hadisələrini hakimiyyətinin ən ağır anları sayır.**

Bu barədə o, Vladimir Solovyevin çəkdiyi filmdə bildirib. Aprelin 26-da efirlərə çıxacaq filmdə o deyib: "Bunlar, əlbəttə, dəhşətli terror hadisələridir. Bu, Beslan və Dubrovkadakı mərkəzdir", - deyə Vladimir Putin vurğulayıb. "Aydın idi ki, məsuliyyət böyükdür. Mən özüm üçün qərara aldım ki, başqa seçimim yoxdur. Axıra kimi getməliyəm", - deyə prezident bildirib.

1 sentyabr 2004-cü ildə Ruslan Xaçbarovun rəhbərlik etdiyi 30 nəfərlik dəstə Osetiyanın Beslan şəhərinə hücum edərək 1 min 128 adamı girov götürüb. Girovlar üç gün ərzində ac və susuz idman zalında saxlanmışdı. Hadisə zamanı 335 nəfər ölmüşdü, onlardan 318-i girov olub. Girovlardan 186-sı uşaq olub. 810 nəfər isə yaralanmışdı. Movsar Barayevin başçılıq etdiyi silahlı qruplaşma 23-26 oktyabr 2002-ci ildə Moskvada "Nord-Ost" müzikli gedən mədəniyyət evinə hücum etmişdi. Terrorçular 900 nəfəri girov götürüb. Hadisə zamanı 130 nəfər girov dünyasını dəyişib.

# Dağıstanda "Qafqaz əmirliyi"nin lideri öldürülüb

## Gerey-Avlakda keçirilən əməliyyat nəticəsində 5 terrorçu zərərsizləşdirilib

**Rusiyanın Dağıstan Respublikasında keçirilən xüsusi əməliyyat zamanı "Qafqaz əmirliyi" qruplaşmasının rəhbəri Əliasxab Kebekov öldürülüb.** APA-nın "RİA Novosti"yə istinadən verdiyi məlumata görə, bu barədə Milli Antiterror Komitəsinin yaydığı xəbərdə deyilir. Gerey-Avlak qəsəbəsində keçirilən əməliyyat nəticəsində 5 terrorçu zərərsizləşdirilib. Doku Umarovun xələfi sayılan A. Kebekovdan başqa cinayətkar qruplaşmaların başçıları Şamil Hacıyev və Ömər Maqomedov qətlə yetirilib.

# Fakt

22 aprel 2015-ci il № 118 www.faktinfo.az ictimai-siyasi qəzet qiyməti 40 qəpik


# Elnarədən Röya və Natavan açıqlaması



**Müğənni Elnarə Xəlilova həmkarları Röya Ayxan və Natavan Həbibi ilə münasibətləri haqda danışıb.**

Sənətçi Axşam.az-a açıqlamasında Röyanın "W-trio" ilə bağlı sözlərinə cavab verib:"Röya sonuncu dəfə bizi 8 il bundan əvvəlki konsertində bir araya gətirib. Daha sonra mənə heç bir təklif gəlməyib. Heç mesaj da yazmayıb. Əgər təklif olsa, niyə də qəbul etməyim ki? Sevə-sevə razılaşaram. Tək Röyadan yox, Natavandan da nəsə dəvət olsa, etiraz etmərəm. Hər ikisi ilə münasibətim yaxşıdır".

Xatırladaq ki, Röya açıqlamasında keçmiş "W-trio"nun yenidən bir araya gələ biləcəyinin mümkünlüyü deyib:

"Mən həmişə onlarla birləşib, nəsə etmək istəmişəm. Bir dəfə də onlar addım atsınlar. Adam paxıl olmaz. Mən onlara qarşı addım atdım. Qızlardan cavab gəlmədi. Bir dəfə zəng edib desinlər ki, Röya belə layihə var, bunu gerçəkləşdirək".

# Uitni Hyustonun qızı komadan ayılıb



**Mərhum amerikalı müğənni Uitni Hyustonun yegane qızı olan Bobi Kristina Braun komadan ayılıb. Bu haqda Kristinanın atası bildirib: "Bobbi oyandı. O, məni eşidir".** Amma qızın qohumları bu informasiyanı təsdiqləməyiblər. Braunun ailəsinə yaxın olan şəxslərdən biri isə "Mən bildiyim qədər, heç bir dəyişiklik olmayıb. Biz əvvəlki kimi dua edirik. Ümid edirik ki, Allah möcüzəni yaradacaq" - deyə, bildirib. Onun nənəsi Sissi Hyuston jurnalistlərə etiraf edib ki, nəvəsinin sağalma şansı azdır.

*Qeyd edək ki, Kristina Braun yanvarın 31-də Atlanta yaxınlığındakı evinin hamamında huşsuz vəziyyətdə tapılmışdı. Onun həyatını xilas etmək məqsədi ilə həkimlər Kristina Braunu süni koma vəziyyətinə salmışdı. Martın sonunda isə o, reabilitasiya mərkəzinə köçürülüb.*



# Almaz Ələsgərli məyus olub

"Burnumu kəsdirdim, çox peşmanam "

**Əməkdar artist Almaz Ələsgərli peşman olub.**

"Hər şey daxil" verilişində qonaq olan müğənni burnunu əməliyyatdan sonra bəyənmədiyini bildirib: "Köklüyüm mənim üçün kompleks deyil. Gənc yaşlarımda burnumu bəyənmirdim. Güzgüyə baxıb, özümə irad tuturdum. 2002-ci ildə Rəhim Rəhimlinin sözünə uydum. Burnumu kəsdirdim, çox peşman oldum. İndi o burunla qalsaydım daha yaxşı idi".

# İki nəhəngin arasında qaldı

Ağır yaralanmış balaca 3 saat sonra tələf olub

**Cənubi Afrikadakı çaylardan birində iki nəhəng erkək begemotun davasında 5 günlük balaca begemot aldığı yaralardan həlak olub.** Milli.Az Daily Mail-ə istinadən bildirir ki, olay Cənubi Afrika Respublikasının şərqində, Kvazulu-Natal vilayətindəki İsimanqaliso bataqlıqlarında yaşanıb.

"İsimangaliso Wetland Park"dakı çaydakı begemotlardan ikisinin arasında qəflətən dava başlanıb. Erkək begemotlar dalaşanda isə onların arasında 5 günlük balaca begemot qalıb. Ağır yaralanmış balaca 3 saat sonra tələf olub. Baş verənləri "Shoreline Hippo and Safari"nin operatoru, 30 yaşlı Steysi Farrel çəkib.





# Namiq "daş atdı"

"Aygün xanımın məndən sonra oxuduğu duetlər uğursuzdur"

**Meyxanaçı Namiq Qaraçuxurlu keçmiş duet ortağı, xalq artisti Aygün Kazımova haqqında açıqlama verib. Sənətçi "Onlar"a müsahibəsində onun yeni duetlərini uğursuz adlandırıb:**

"Aygün xanımın məndən sonra oxuduğu duetlər uğursuzdur. Birlikdə oxuduqlarımız daha yaxşı idi. İndi də hara gediriksə, o duetləri eşitmək istəyirlər. Sənət dostlarımız da məndən həmin mahnıları oxumaq üçün icazə alırlar. Aygün xanımın da fikrini öyrənib, sonra razılıq verirəm. Yoxsa aləm dəyər bir-birinə. Mənim də ondan sonra uğurlu duetim olmadı. Hətta onunla işbirliyinə son qoyandan sonra iki il heç kimlə duet oxumadım. Böyük məmnuniyyətlə yenidən Aygün Kazımova ilə işbirliyi quraram. Amma şərhlərdən qorxuram. Pis fikirlər yazılır. Bu da şəxsi həyatıma təsir edir".

# Elnur Amsterdamda...

"Eurovision" konserti keçirilib

**Amsterdamın populyar musiqi mərkəzi olan "Melkweg" məkanında illik "Eurovision" konserti keçirilib.**

Mərasimdə 24 çıxış, o cümlədən Azərbaycanın təmsilçisi Elnur Hüseynovun ifası dinlənilib. Konsertdə 1500-dən çox pərəstişkar olub. Müsabiqə iştirakçıları jurnalistlərlə də görüşüb. Tədbirin xüsusi qonağı isə "Eurovision- 1985" mahnı müsabiqəsinin qalibi olmuş "Bobbysocks" dueti olub.

*Qeyd edək ki, E.Hüseynov mayın 21-də "Eurovision-2015" mahnı müsabiqəsinin ikinci yarımfinalında 11-ci çıxış edəcək. O, "Hour of the Wolf" mahnısını səsləndirəcək.*



# Rəmiş vəsiyyətnaməsini hazırlayıb



**Xalq artisti Rafiq Hüseynovla (Rəmiş) həyat yoldaşı Gülünün 37 il sonra ikinci dəfə toyları olub.**

## "Evimi dövlət verib. Dünyadan köçəndə də özlərinə qaytaracam"

Bu, ATV-də yayımlanan "Mənə bir az ondan danış" verilişində baş tutub.

Proqramda Gülüyə ağ gəlinlik geyindirilib. Gəlinin toy bacısı xanəndə Elnarə Abdullayeva, bəyin sağdışı isə Aşıq Əli olub. Gitara ifaçısının xanımı ağ gəlinliyi ilk dəfədir geyindiyini bildirib:

"Bizim çox maraqlı həyatımız olub. Həm acı, həm də xoş günlər yaşamışam. Rəmişlə ailə qurduğum günü xatırladım. 1978-ci il idi. Onda gəlinlik yox, qara paltar geyinmişdim".

Rəmiş vəsiyyətnaməsini hazırladığını deyib:

"Bizim Gülü ilə rəsmi nikahımız var. Amma təmtəraqlı toyumuz olmayıb. Nəyim varsa, hər şeyi ona vəsiyyət etmişəm. Belə etdim ki, öləndə qohumlarım malıma göz tikməsinlər. Evimi dövlət verib. Dünyadan köçəndə də özlərinə qaytaracam".

# Ancelina Suriyadan uşaq övladlığa götürür

## Bu Hollivudun məşhur cütlüyünün 4-cü övladı olacaq



**Dünya şöhrətli aktyor cütlük yenidən övladlıq uşaq götürürlər. Ancelina Coli və Bred Pitt ailələrini böyütmək üçün hərəkətə keçiblər. Bu Hollivudun məşhur cütlüyünün 4-cü övladı olacaq.**

Övladlığa götürmə işləri bu il yayın sonuna kimi baş tutacaq. Bu barədə "The Daily Express"ə ailənin iş tərəfdaşlarından biri bildirib.

Mənbənin sözlərinə görə, cütlük Suriyadan olan uşağı ailələrinə qatmaq niyyətindədirlər. "Ancelina sağlamalıqla bağlı problemlərini həll etdikdən sonra onlar Bredlə birlikdə ailəyə daha bir uşağı daxil etmək zamanı gəldiyinə qərar veriblər. Bu yəqin ki, qız olacaq", deyə mənbə bildirib.

Xatırladaq ki, Ancelina və Bredin ümumilikdə 6 övladı var. Onlardan üçü doğma, üçü isə övladlıqdır.

Fevral ayında onların Suriyadan olan Mussa adlı oğlan uşağını övladlığ götürmək istəməsi barədə məlumat yayılsa da, bu təsdiqini tapmamışdı.


Baş redaktor: Fuad İsgəndərov

Redaktor: Rasim Kazımlı

Ünvan: Bakı ş. Mətbuat prospekti 529-cu məhəllə

Telefonlar (012) 538 17 47 (050) 342 00 15

Rekvizit: Rabitəbank ASC h\h Az 45RBTA00382101459440010755 VÖEN 1500268072

Qəzet "Fakt"ın redaksiyasında yığılıb, səhifələnib və Azərbaycan Nəşriyyatında çap olunub
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər
Faktlara görə müəlliflər məsuliyyət daşıyır
Sifariş: 1268